# İFTİXAR PİRİYEVƏ TƏBRİK MƏKTUBU

**Hörmətli İftixar müəllim! Siz - dəyərli aktyor, şair, dramaturq, publisist, sənətşünaslıq üzrə fəlsəfə doktoru olmaqla yanaşı, həm də bacarıqlı teatr rəhbəri kimi 2000-ci ildən bizim teatra başçılıq edirsiniz. Ömrünüzün 15 illik bir tarixinin ən parlaq anları bu sənət ocağında keçir və burada çalışan hər kəs üçün Siz doğma bir insansınız. Bu məkanda bərabər yaşadığımız bəzən çətin, bəzən asan olan bütün hadisələr bizim üçün çox dəyərlidir.**





2000-ci ildə Sizin, bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan Tiflis Dövlət Azərbaycan Dram Teatrının bərpa rəhbərliyindən üzərinizə düşən missiyanı uğurla bitirərək geri döndükdən sonra taleyiniz İrəvan Teatrına bağlandı. Və bu gün İrəvan Teatrında yaranmış dönüş, dinamik inkişaf, əldə olunan uğurlar teatrın yeni inkişaf mərhələsinə çatması və nüfuz dairəsinin genişlənməsində Sizin əvəzsiz əməyiniz danılmaz fakt kimi göz önündədir.

Rəhbərliyiniz altında bu günə qədər səksənə yaxın əsərin səhnə həyatına nail olunması, Azərbaycan teatr şəbəkəsini birləşdirən, daha sonra Qafqaz teatrlarını birbirinə bağlaya bilən bir neçə respublika miqyaslı, eləcə də bir neçə beynəlxalq layihənin gerçəkləşdirilməsi, prodüsser sistemi ilə işləməyə üstünlük verməklə nailliyyətlər qazanmaq, dəfələrlə Türkiyə Cümhuriyyətində, Gürcüstan, Dağıstan Respublikalarında uzunmüddətli və genişmiqyaslı, nüfuzlu qastrol səfərlərinin uğurla reallaşması və s. kimi teatrın inkişafı üçün önəmli olan işləri həyata keçirə bildik.

Dövrü mətbuat, radio və televiziya kanalları İrəvan Teatrının maraq doğuran fəaliyyəti barədə teztez yazılar yazdı, geniş süjetlər göstərdi. Teatrın bir sıra tamaşaları telekanalların Qızıl fondu üçün çəkildi. Beləliklə, teatrın şöhrətini öndə gedən teatrlar sırasına qaldırmaq üçün Siz bütün imkanlarımızı səfərbər etdiniz. Fəaliyyətimizin dəyəri teatrımızın 125 illik yubileyi zamanı ölkə başçısının ali fərmanları ilə öz həqiqətinə qovuşa bildi. Həmin ərəfədə, yarandığı gündən etibarən heç vaxt binası olmayan teatrımız dövlətimiz tərəfindən layiqli bina ilə təmin olundu. Mədəniyyət və Turizm Nazirinin qayğısı ilə dəfələrlə xarici ölkələrdə teatr sənətimizi uğurla nümayiş etdirmək nəsibimiz oldu.

İrəvan Teatrının fəaliyyətinin məzmun və mahiyyətində xalqımızın sənət sərvətini yüksək miqyasda inkişaf etdirib qorumaqla bərabər vətəndaşlıq mövqeyindən və milli mənafedən çıxış etmək durur. Səylərиniz nəticəsində teatrımızın kollektivi səmimi vətənpərvərlik missiyası ilə mənsub olduğu xalqına, torpağına, millətinə, dövlətinə və dövlətçiliyinə, Azərbaycan teatr sənətinin inkişaf etdirilməsinə vicdanla xidmət göstərir. Teatr respublikadaxili və xarici ölkələrə olan hər bir səfərində, geniş yaradıcılıq imkanlarının miqyasını göstərməklə yanaşı, həm də İrəvan və Qarabağ həqiqətlərinin carçısı olduğunu dönə-dönə və qəhrəmancasına sübut edir.

Sizin fəaliyyət prinsipləriniz barədə mövqeyiniz İrəvan Teatrının tarixi haqqında yazdığınız monoqrafiyanızda öz əksini belə tapmışdır: “Diqqətəlayiq məsələ budur ki, İrəvana dönmək eşqini hər zaman özündə yaşadan İrəvan Teatrı heç vaxt təkcə sənət məkanı kimi fəaliyyətini məhdudlaşdırmamışdır, həm varlığı ilə, həm də yaratdığı vətənpərvər ruhlu nəhəng tamaşalarla, torpaqlarını zəbt etmiş və onu isti yurd-yuvasından didərgin salmış düşməninə qarşı qəhrəmancasına mübarizə mövqeyində dayanmışdır. İnanıram ki, bu mövqe İrəvan Teatrı üçün hər zaman priaritet məsələ kimi aktiv qalacaqdır və kollektivimiz ölkə başçısının apardığı uğurlu siyasət sayəsində, respublikamızda gedən bu günkü parlaq inkişafın sabahımıza apardığı işıqlı yolda üzərinə düşən sahədə hər zaman öz işini aktiv fəaliyyət prinsipləri üzərində davam etdirəcəkdir”...

İnanırıq ki, Sizin tükənməz sənət enerjiniz və kollektivin hər bir üzvünə göstərdiyiniz səmimi münasibətiniz sayəsində biz - kollektivin üzvləri də, İrəvan Teatrının qazandığı bu şöhrətin daha da geniş vüsət alması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətimizi gecəli-gündüzlü, sizin də dediyiniz kimi, əzmlə davam etdirməyin təkcə vəzifə borcumuz olmadığını, həm də bir milli mənafe və vətəndaşlıq görəvimiz olduğunu bütün varlığımızla dərk edərək, yeni sənət nümunələri ilə xalqımızın xidmətində duracağıq.

İftixar müəllim, Sizi - Azərbaycan teatr sənətinin tanınmış sənətkarını anadan olmanızın 55 illiyi münasibətilə ürəkdən təbrik edir, Sizə can sağlığı, yaradıcılıq nailiyyətləri arzulayırıq. Hər zaman sənət zirvələrində olun!

Sizə ehtiramla,

**C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının kollektivi**

# Əməkdar artist Türkiyədə iki mükafata layiq görülüb







**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar Artist Nofəl Vəliyev 18-23 avqust tarixlərində Türkiyənin Bursa şəhərinin Mudanya bölgəsində “Teatr tətili” yay məktəbində iştirak edib. Bu il yaradılan və Türkiyənin müxtəlif şəhərlərindən məşhur teatr mütəxəssislərinin iştirak etdiyi məktəbdə aktyorumuz ustad dərsləri ilə çıxış edib.**

2014-2015-ci illər teatr mövsümü ərzində İstanbulda nümayiş etdirilən tamaşaların yozumu və aktyor oyununu qiymətləndirən Türkiyənin nüfuzlu “XV Direkleraras Seyirci Ödülləri” qurumunun qərarı ilə Nofəl Vəliyev iki nominasiya üzrə mükafatlandırılıb.

“Ən yaxşı rejissor işi” nominasiyası üzrə mükafata aktyor ötən mövsüm Türkiyə Cumhuriyyətinin Antaliya Böyükşəhər Bələdiyyə Teatrında Pərvin Ünalpın “Gec qalanlar” əsəri əsasında hazırladığı eyniadlı tamaşaya görə layiq görülüb.

“Türkiyə xaricində mükafata layiq görülən teatrlar” nominasiyası çərçivəsində növbəti mükafata isə cari ilin may ayında Türkiyə Cumhuriyyəti Dənizli şəhərində keçirilmiş Beynəlxalq Teatr Festivalında nümayiş etdirilən “Qaçaq qocalar” tamaşası layiq görülüb.

Məlumat üçün bildirək ki, sözügedən tamaşa ötən mövsüm Azərbaycan Teatr Xadimləri İttifaqının nəzdində fəaliyyət göstərən “Rejissorluq emalatxanası”nda Nofəl Vəliyev tərəfindən hazırlanıb.



